ədalət.- 2020.- 12 noyabr.- S.8.

*Kəmaləddin Qədim*



# KÖÇ

**(Qarabağ havası üstdə)**

***(Poemadan parça)***

## *DÜNYADA KÖÇ GEDİR BELƏDƏN-BELƏ...*

Beyninə gələni göçürür dahi,
Dünyada köç gedir belədən-belə...
Kim isə, nəyisə yazmır, ilahi,
Kim isə, nəyisə köçürür elə...

Yox olmur bədəndən cıxanda can da,
Sonunda ruh olub yaşayır hamı.
Hər şey köçürmədi bəni insanda,
Ömür də başqa bir ömrün davamı.

Yoxluqdu varlığın astar üzü də,
Ruh adlı varlıqdı yoxdan sonrakı.
Elə köçürmədi dünya özü də,
Nuhdan əvvəlkidi, Nuhdan sonrakı...

Sən demə Vətən də köçürmüş, Allah,
Dəysə igidinin yerə dizləri.
Köçürür Vətəni başsız başçılar,
Köçürür Vətənin qeyrətsizləri.

Köçür dövlətiynən, köçür varıynan,
Dağıynan, düzüynən köçür yurd yeri.
Köçür perik düşən adamlarıynan,
Sazıynan, sözüynən köçür yurd yeri.

Beyninə gələni köçürür dahi,
Dünyada köç gedir belədən-belə...
Kim isə, nəyisə yazmır, ilahi,
Kim isə, nəyisə köçürür elə...

***

Gəlmişəm, gəlməyim tutub bir axşam,
Əcəl şərbətini içib gəlmişəm.
Mən ana bətnindən doğulmamışam,
Mən ana bətnindən köçüb gəlmişəm.

Mən yola vuruldum, yol məni çəkdi,
Beləcə yollarda keçdi mənimki.
Vətəndə Vətənçün həsrət çəkməkdi,
Vətəndən-Vətənə köçdü mənimki.

Qazanıb dərd-qəmi, bulub dərmanı,
Qənim kəsilmişəm, çözüm olmuşam.
Özüm uğurlayan köçün, karvanin,
Elə, sarvanı da özüm olmuşam.

Sonra duman belə, sonra çən belə,
Sonra da mənimçün seçim başlayıb.
Bu fani dünyada belədən-belə,
Dönüşüm başlayıb, köçüm başlayıb...

Elə yazdan yaya, payızdan qışa,
Hüzndən düyünə köçmüşəm elə.
Dünəndən bu günə sağ çıxmamışam,
Dünəndən bu günə köçmüşəm elə...

Hardan gəlib girdi lüğətimizə,
Hardan dilimizə calandı bu söz?
Göstərib "qaçqın"dı dedilər bizə,
Dolandı, dünyanı dolandı bu söz.

Bu da aqibətmi, bu da sondumu,
Bu kəlmə könlümə yatmır ki, yatmır.
Bu necə "qaçış"dı, marafondumu,
Hələ də mənası, anlamı çatmır.

Hələ də sulayır meydan, hələ də,
Bir gün şəhərcik də saldıq adına.
Gələnin-gedənin gözünə soxduq,
Salmadı yenə bir kimsə yadına.

"Qaçdılar", söyləyib çərənlədilər, -
Nə qandan, qadadan keçib gəlmişik.
Durna qatarıydıq, görəmmədilər,
Perikib gəlmişik, köçüb gəlmişik.

Vaqon da, çadır da, uçuq koma da
Bilməzdim bu köçdə hələ son deyil.
Gərək bundan sonra "Qaçqınkoma"da,
"Qaçqınkom" deməyim,
"Köçkünkom" deyim.

Əyləşib bu çayın dəhnəsində dev,
Bu çaydan keçilər, devdən qaçılmaz.
Beşikdən məzara qədərdi bu ev,
Evdən köçülər də, evdən qaçılmaz...

## *TANRI ŞUŞADAN KÖÇÜR...*

Bu nə karvan, bu nə köç,
Dörd tərəf, dörd yan köçür.
Ruh qanadlı quş olub,
Bədən köçür, can köçür.

Haqqa meydan çatışmır,
Dərdə dərman çatışmır.
Damarda qan çatışmır,
Qanköçürən, qan köçür...

Necə çəkək bu dərdi,
Betərindən - betərdi.
Ruhları dərbədərdi,
Bülbül köçür, Xan köçür...

Fağır müsəlman elə,
Baxır müsəlman elə.
Axır müsəlman ilə
Tanrı Şuşadan köçür...